

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

23 sentyabr 2025-ci il, çərşənbə axşamı
№ 170 (6997)
Qiymati 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Azərbaycan - Ruanda: Yaxşı tərəfdaş və dost ölkələr



Bax səh. 2

## Qlobal təhlükəsizlikdə yeni strateji xətt: Bakı Təhlükəsizlik Forumu

Bax səh. 3

### İqtisadi münasibətlərdə yeni mərhələ

Afrika ölkələri ilə Azərbaycan arasında iqtisadi sahədə əlaqələr ötən əsrin sonlarında qurulsa da, intensiv əməkdaşlıq təmasları son illərdə yüksələrək davamlı xarakter almağa başlayıb. Afrika Birliyi Təşkilatının qitə ölkələrinin dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə bağlı atdığı iradəli addımlar bir çox region dövlətləri, o cümlədən Azərbaycanla münasibətlərin inkişafında yeni mərhələ açıb. 2011-ci ilin 15 yanvar tarixindən etibarən Azərbaycanın Afrika İttifaqı (Aİ) yanında müşahidəçi statusu alması isə müxtəlif iqtisadi bölmələrdə əlaqələrin qurulması üçün əsaslı zəmin yaradıb.

Respublikamızın qitə dövlətlərindən Ruanda ilə beynəlxalq və regional təşkilatlarda fəal əməkdaşlığı, eyni zamanda, hökumət heyətlərinin qarşılıqlı səfərlərinin artması və mühüm sənədlərinin imzalaması...

Bax səh. 5




Bax səh. 4

## Sərmayələrin təşviqi üçün nümunəvi platforma

## Sinifdə, stadionda, səhnədə...

Bax səh. 5

## Yelisey Sarayı demokratiya imtahanından “2” alır

Bax səh. 6

## Moskvadan Qərbə xəbərdarlıq...

Bax səh. 7

### Nəqliyyatda dayanıqlı xidmət və təhlükəsizlik naminə

Prezident İlham Əliyevin imzaladığı “Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərman sərnişindaşıma və şəhər nəqliyyatının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm yenilikləri özündə əks etdirir. Belə ki, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlılığının və davamlılığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla bu sahədə fəaliyyət göstərən daşıyıcıların işinin səmərəli təşkili məqsədilə dövlət büdcəsinin tərkibində “İctimai nəqliyyat” Məqsədli Büdcə Fondu yaradılacaq.

Növbəti ilin...

Bax səh. 4

## “Baqram”a dönüş planı...



Bax səh. 7

## Fələstini tanıyanlar artır



Bax səh. 6

# Azərbaycan - Ruanda: Yaxşı tərəfdaş və dost ölkələr

Milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursuna malik olan Azərbaycan müxtəlif coğrafiyalarda yerləşən ölkələrlə əlaqələrini uğurla genişləndirməkdədir. Azərbaycan özünün ardıcıl diplomatiyasında bir qayda olaraq qarşılıqlı maraqlardan cıxış edir ki, bu da yaxın, uzaq coğrafiyalarda ölkəmizin cəlbediciliyini artırır.

Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin respublikamıza uğurlu səfəri də bu kontekstdə diqqət çəkir. Bəhs olunan səfəri Azərbaycanın ötən ilin noyabr ayında yüksək səviyyədə ev sahibliyi etdiyi COP29 çərçivəsində Prezident İlham Əliyevin Ruandanın dövlət başçısı ilə görüşünün davamı kimi də dəyərləndirmək mümkündür. Bakıda qlobal iqlim konfransı günlərində baş tutan görüşdə Prezident İlham Əliyev Ruandadan olan həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib və qarşı tərəf dəvəti məmnuniyyətlə qəbul edib. Bu günlərdə Bakıda kifayət qədər məhsuldar keçən rəsmi səfər çərçivəsində prezidentlər bir sıra mühüm görüşlərə qatılıblar və aktual müzakirələr aparıblar. "Əminəm ki, bu səfər ikitərəfli münasibətlərə əlavə təkan verəcək. Biz əməkdaşlığımızın müxtəlif aspektlərini artıq müzakirə etdik, tərəfdaşlığımızı dərinləşdirməkdə və genişləndirməkdə birgə iradəmizi ifadə etdik", - deyə Prezident İlham Əliyev Azərbaycan ilə Ruanda arasında imzalanmış sənədlər mübadilə olunduqdan sonra mətbuata verdiyi bəyanatında vurğulayıb.





## Azərbaycan Afrikanı fəth edir

Ruanda Prezidentinin Bakıya ardıcıl səfərləri Azərbaycanın öz siyasətini Afrika qitəsində genişləndirməsi kontekstində xüsusilə diqqət çəkir. Avropada, Asiyada, körfəz coğrafiyasında özünə çoxlu sayda dostlar qazanan respublikamız artıq Afrikada da möhkəmlənməkdədir. Dövlətimizin Afrika qitəsi ölkələri üzrə siyasəti diplomatiya, iqtisadi əməkdaşlıq və humanitar təşəbbüsləri özündə birləşdirən kompleks xarakter daşıyır.

Son illər ərzində Azərbaycan ilə Afrika ölkələri arasında münasibətlər ənənəvi siyasi dialoq çərçivəsindən kənara çıxaraq irəliləyib. 1992-2012-ci illərdə Afrika dövlətlərinin əksəriyyəti ilə diplomatik münasibətlərin qurulması ilə başlayan bu proses Bakının fəal xarici siyasəti sayəsində əhəmiyyətli dərəcədə inkişaf edib. Bunu Afrika ölkələrinin yüksəksəviyyəli rəsmilərinin respublikamıza intensivləşən səfərləri də təsdiqləyir. Qeyd edək ki, son vaxtlarda Konqo, Somali, Qvineya-Bisau kimi dövlətlərin prezidentlərinin respublikamıza uğurlu səfərləri baş tutub. Eyni zamanda, ölkəmizin Keniya, Əlcəzair və Nigeriya və digər Afrika ölkələri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığı uğurla inkişaf edir.

Artıq Afrika qitəsinin ölkəmizlə siyasi əlaqələrinin genişləndiyi dövlətlər sırasında Ruanda Respublikası da yer alır. Qeyd edək ki, Ruanda Afrika qitəsinin Şərqində yerləşir və dənizə çıxışı olmayan ölkələrdəndir. Şimaldan Uqanda, qərbdən Kivu gölündə daxil olmaqla Konqo Demokratik Respublikası, cənubdan Burundi, şərqdən isə Tanzaniya ilə həmsərhəddir. Paytaxtı və ən böyük şəhəri Kiqali, ümumi sahəsi 26,338 kvadrat kilometr, əhalisinin sayı 12 milyon nəfərdən çoxdur.

Azərbaycan və Ruanda arasında diplomatik əlaqələr 2004-cü il mayın 28-də qurulub. Bu addım iki ölkə arasında münasibətlərin əsasını qoyub. Azərbaycan ilə Ruanda arasında münasibətlər qarşılıqlı faydalı əməkdaşlıq müstəvisində inkişaf edir. 2023-cü ildə BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ruanda Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikası Hökuməti və Ruanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş" imzalanıb.

Hər iki ölkə çoxtərəfli platformalar çərçivəsində də əməkdaşlığın genişlənməsinə xüsusi önəm verir. Qeyd edək ki, Bakı ilə Kiqali arasında Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı dialoq üçün əsas platformalardır. Məhz bu təşkilatlar çərçivəsində Ruanda daim Azərbaycana dəstəyini ifadə edib. Mətbuata verdiyi bəyanatında bu kimi məqamları yüksək dəyərləndirən dövlətimizin başçısı "Azərbaycan ilə Ruanda yaxşı tərəfdaş və dostlardır. Biz müxtəlif beynəlxalq təsisatlarda birgə iştirak edirik və hər zaman bir-birimizi dəstəkləyirik", - deyə vurğulayıb.



## Qoşulmama Hərəkatı çərçivəsində genişlənən münasibətlər

Azərbaycanla əksər Afrika dövlətlərinin, o cümlədən də Ruandanın ən sıx əməkdaşlıq etdiyi beynəlxalq platformalardan biri Qoşulmama Hərəkatıdır (QH). Tərkibində 120 dövləti bir araya gətirən QH düntyada BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatdır.

Ölkəmiz 26 may 2011-ci ildə İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək QH-na tam hüquqlu üzv qəbul olunub. Həmin dövrdən etibarən respublikamız QH-nın fəaliyyət istiqamətlərinin genişlənməsinə, ideyalarının təşviqinə və həyata keçiriləsinə özünün sanballı töhfələrini verir ki, bu da qurumda təmsil olunan dövlətlər tərəfindən yüksək dəyərləndirilir. Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin respublikamıza həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Azərbaycanın 3 il müddətinə bu təşkilata sədr seçilməsi, şübhəsiz ki, diplomatiyamızın növbəti qələbəsi olub.

2021-ci ildə isə Qoşulmama Hərəkatının üzvləri Azərbaycana müraciət ünvanlayıb və sədrliyi əlavə bir il müddətinə həyata keçirməyi xahiş ediblər. Azərbaycan da öz növbəsində bu təklifi qəbul edib. Bu qərar Hərəkat üzvləri tərəfindən Prezident İlham Əliyevin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir. Prezident İlham Əliyev mətbuata bəyanatında Afrika ölkələrinin, o cümlədən də Ruandanın Qoşulmama Hərəkatında ölkəmizə fəal dəstək verdiyini yüksək dəyərləndirərək vurğulayıb: "Qoşulmama Hərəkatında sədrliyimiz dövründə Ruanda hər zaman bizə dəstək vermişdir. Siz bizə sədr seçilmək və sonra sədrliyimizin uzadılması üçün dəstək verdiniz. Ruanda, həmçinin Qoşulmama Hərəkatında həmrəyliyin gücləndirilməsinə yönəlmiş təşəbbüslərimizin əksər hissəsini dəstəkləmiş və ona qoşulmuşdur. Biz birmənalı olaraq BMT daxilində hər zaman fəal əməkdaşlıq edirik və bir-birimizə qarşılıqlı dəstəyi artırırıq".

Öz növbəsində Azərbaycan Ruandanın və digər Afrika ölkələrinin QH çərçivəsində respublikamıza dəstəyini yüksək məsuliyyət kimi qəbul edir. Bunu ölkəmiz QH-na sədri olaraq bir daha təsdiqlədi. Belə ki, sədrliyi dönəmində Azərbaycan Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun artmasına nail oldu. Ölkəmizin fəal səyləri sayəsində qurumun yeni qolları yarandı. Eyni zamanda, respublikamız COVİD-19-la mübarizə çərçivəsində qlobal həmrəylik təşəbbüsündən çıxış etdi və Ruanda da daxil olmaqla bir sıra Afrika ölkələrini maddi cəhətdən dəstəklədi. QH-nın sədri kimi ölkəmiz, həmçinin "peyvənd millətçiliyi"nə qarşı qətiyyətli mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Qoşulmama Hərəkatına üzvlük və sədrliyin Azərbaycana töhfələri də böyük olub. 2012-ci ildə respublikamızın 155 ölkənin səsini əldə edərək BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində QH-na üzv dövlətlərin dəstəyi də öz rolunu oynayıb. Azərbaycan həmçinin Qoşulmama Hərəkatından ölkəmizin həqiqətlərinin beynəlxalq birliyin diqqətinə çatdırılması üçün səmərəli bir platforma kimi istifadə edir. İndiyədək ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində daim dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun (artıq ləğv olunub - red.) həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmalarını göstərmək mümkündür. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb.



## Heydər Əliyev Fondunun Ruanda ilə təhsil, mədəniyyət sahələrində əməkdaşlığı

Azərbaycanla Ruanda arasında humanitar sahədə əməkdaşlıq da genişlənməkdədir və burada Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun rolunu xüsusi vurğulamaq lazımdır. Son vaxtlarda Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən humanitar diplomatiya əlaqələrin inkişafına və tərəfdaşlığa möhkəm zəmin yaratmaq üçün əsas vasitəyə çevrilib. Bunun əyani sübutu 2024-cü ildə Rvamaqana şəhərindəki məktəbdə içməli su probleminin həll olunmasıdır. Məktəb binasının yerləşdiyi ərazidə Fondun dəstəyi ilə su quyusu qazılaraq saatda 3 tona yaxın içməli suyun verilməsi təmin edilib.

Ötən ilin dekabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva humanitar missiya ilə Ruandada səfərdə olub və bu ölkənin Prezidenti ilə görüşüb. Ruanda Prezidenti ilə görüşdə ikitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Afrika ölkələrində təhsil və mədəniyyət sahələrinin inkişafı istiqamətində layihələrin, təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib. Prezident Pol Kaqame ölkəmizin, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə Ruandada həyata keçirilən təhsil və mədəniyyət sahəsindəki layihələrə görə təşəkkür edib.

## Azərbaycanın sülh gündəliyi Ruandada yaxından izlənilir

Postmüharibə mərhələsində qalib tərəf olan ölkəmizin təşəbbüsü ilə Azərbaycanla Ermənistan arasında sülyaratma prosesinə start verilib. Azərbaycan bu məsələdə heç bir ilkin şərt irəli sürmədən sırf beynəlxalq hüquqa istinad edib. Məhz ölkəmizin fəal səyləri sayəsində tənzimləmə prosesi irəliləyib və avqust ayının 8-də Vaşinqtonda. Ağ Evdə, dünyanın bir nömrəli ofisində Donald Trampın şahidliyi ilə yekun sülh sazişi paraflanıb. İndi Azərbaycan və Ermənistan heç vaxt olmadığı qədər sülhə yaxındırlar.

Vaşinqton razılaşmaları ölkəmizin sülh gündəliyinin dünyada qəbul edildiyini təsdiqləyir. O cümlədən proseslər qonşu Konqo ilə uzun illər ərzində münaqişədə olan Ruandada da yaxından izlənilir. Bununla bağlı fikirlərini bildirən Ruanda Prezidenti Pol Kaqame vurğulayıb: "Mən Sizin ABŞ-da gəldiyiniz razılaşmanı - sülh razılaşmasını gördüm. Nəyə görə mən bu məsələni qabardıram, çünki biz də Ruanda və Konqo Demokratik Respublikası arasında özümüz üçün bir sülh sazişinə nail olmaq istəyirik. Lakin siz müəyyən hədəflərə çatmaq nöqteyi-nəzərindən bizdən irəlidəsiniz. Odur ki, mən Sizi bu münasibətlə təbrik etmək istəyirəm".

Qeyd edək ki, cari ilin iyun ayında Vaşinqtonda Konqo Demokratik Respublikası və Ruanda sülh sazişi imzalayıb. Sənədi ABŞ dövlət katibi Marko Rubionun iştirakı ilə Konqo DR-in xarici işlər naziri Tereza Kayivamba və Ruandanın xarici işlər naziri Olivye Nduhungirehe imzalayıblar.

ABŞ-nin vasitəçiliyi ilə imzalanan saziş Konqo DR-in şərqində hərbi əməliyyatlara son qoymaq məqsədi daşıyır və eyni zamanda iki ölkə arasında daha sıx iqtisadi əməkdaşlığa yol açır. Bununla belə, sənədin icrasının təmin edilməsi ilə bağlı müəyyən tərəddüdlər də var və bu, Prezident Pol Kaqamenin Bakıda ifadə etdiyi fikirlərdən də aydın görünür.

***Mübariz ABDULLAYEV***

# Qlobal təhlükəsizlikdə yeni strateji xətt: Bakı Təhlükəsizlik Forumu

Dünya son illərdə geosiyasi ziddiyyətlərin daha da kəskinləşdiyi, yeni hərbi-siyasi bloklaşmaların, hətta qütbləşmələrin formalaşdığı və beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir mərhələdən keçir. Qlobal güclər arasında qarşıdurmalar, müharibələr, terrorizm, hibrid təhdidlər və kiber hücumlar beynəlxalq təhlükəsizliyi zəiflədən amillər kimi ön plana çıxır. Belə bir mühitdə təhlükəsizlik sisteminin qorunub saxlanılması, yeni çağırışlara adekvat mexanizmlərin formalaşdırılması və qlobal həmrəyliyin təmin olunması bəşəriyyətin qarşısında duran əsas vəzifələrdən biridir.

## İlham Əliyev: Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir

### Təhülkəsizlik amili: Bakı platforması regional və beynəlxalq miqyasda sülhün qorunmasına xidmət edir

Azərbaycan bu proseslərdə özünəməxsus mövqeyi və balanslaşdırılmış siyasəti ilə seçilir. Ölkəmiz təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında sülhün və sabitliyin təmin olunmasına töhfə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diplomatiya, beynəlxalq tərəfdaşlıq platformaları və təhlükəsizlik təşəbbüsləri Azərbaycanın bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Azərbaycanın həyata keçirdiyi siyasətin yalnız regional deyil, qlobal təhlükəsizlik indeksinin artırılmasına yönəlməsi ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunu və strateji əhəmiyyətini təsdiqləyir.

Təhlükəsizlik məsələlərinin effektiv həllində vahid yanaşma, dövlətlərin həmrəyliyi və kəşfiyyat qurumlarının əməkdaşlığı xüsusi rol oynayır. Məhz bu baxımdan, Bakı Təhlükəsizlik Forumu müasir dövrün tələblərinə cavab verən mühüm platforma kimi çıxış edir. Bu forum müxtəlif ölkələrin təhlükəsizlik və kəşfiyyat orqanlarını bir araya gətirərək qlobal təhdidlərə qarşı mübarizədə koordinasiyalı fəaliyyətə şərait yaradır. Bakı platforması həm regional, həm də beynəlxalq miqyasda sülhün qorunması, risklərin azaldılması və gələcək təhlükəsizlik modelinin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində bildirib ki, qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılmasında vacib rolu olan təhlükəsizlik və kəşfiyyat qurumlarını bir araya gətirən Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir: "Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması Forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir".



### Qlobal konfrantasiyalar: dünya hansı böhranlarla üz-üzədir?

Müasir beynəlxalq münasibətlər sistemi klassik hərbi qarşıdurmalardan kənara çıxaraq daha mürəkkəb təhlükələr toplusu ilə üz-üzə qalıb. Bu gün terror şəbəkələri, transmilli cinayətkarlıq, narkotik qaçaqmalçılığı, miqrasiya böhranları, kiberhücumlar və informasiya müharibələri dövlətlərin təhlükəsizlik müstəvisini ciddi sınağa çəkir. Mərkəzi Avropada baş verən konfrantasiyalar, Yaxın Şərqdə davam edən qarşıdurmalar, Afrika və Asiyada separatizm ocaqları beynəlxalq təhlükəsizlik sisteminin zəif bəndlərini açıq şəkildə üzə çıxarır. Bu mənzərə göstərir ki, hər bir ölkənin təhlükəsizliyi qlobal sabitlikdən birbaşa asılıdır. Dövlət başçısı müraciətində bildirib ki, dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir. Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır: "Eyni zamanda, beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur. Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq".

### Təhlükəsizlik prioritetləri: mühüm qətiyyət, birmənalı mövqe, ədalətli yanaşma...

Beləliklə, kəskinləşən ziddiyyətlərin hökm sürdüyü qlobal nizamda Azərbaycan təhlükəsizlik siyasətini yalnız öz milli maraqları çərçivəsində deyil, ümumbəşəri dəyərlər və beynəlxalq sabitlik naminə həyata keçirir. Bu isə ölkəmizi qlobal təhlükəsizlik arxitekturasının mühüm dayaqlarından birinə çevirir. Xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu hazırkı real siyasi proseslərdə özünü doğruldur - beynəlxalq münasibətlərin katklizmlərlə dolu mürəkkəb mərhələsində Azərbaycan Cənubi Qafqazı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir, bütün ölkələrin təhlükəsizlik reflekslərini bölgəyə yönləndirir. Azərbaycan Şərq ilə Qərbin həm sivilizasiyalararası, həm iqtisadi əməkdaşlıq, həm də siyasi tərəfdaşlıq maraqlarını bizim coğrafiyada cəmləyir. Terrorizmə qarşı mübarizədə mühüm qətiyyət nümayiş etdirən Azərbaycan qeyri-adekvat halların istisna olunması üçün səylərini səfərbər edir - təhdid və təhlükələrə qarşı koordinasiyalı fəaliyyət təşkil edir, təhlükəsizliyi təmini üçün bütün gücləri birləşdirir.

Azərbaycan son illərdə həm regional, həm də beynəlxalq müstəvidə təhlükəsizliyin təmin olunması istiqamətində çoxşaxəli siyasət yürüdür. Bu siyasətin əsas prioritetlərinə diqqət yetirsək:

- Regional sabitlik və sülhün təşviqi: 2020-ci il Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar əsasında Azərbaycanın sülh gündəliyi regionda dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına xidmət edir;
- Enerji təhlükəsizliyinə töhfə: Azərbaycan Avropanın enerji xəritəsində əsas təchizatçılardan biri, Yaxın və Orta Şərqin enerji təchizatında yeni oyunçu kimi qlobal enerji təhlükəsizliyinin təminində mühüm rol oynayır. Bu, siyasi sabitliklə yanaşı, iqtisadi təhlükəsizliyə də zəmanət verir;
- Beynəlxalq əməkdaşlıq - NATO ilə tərəfdaşlıq, Qoşulmama Hərəkatındakı fəallıq, BMT çərçivəsində təşəbbüslər Azərbaycanın təhlükəsizlik siyasətini daha da gücləndirir. Azərbaycan illərdir ki, qlobal təhdidlərin aradan qaldırılması, terrorizmə qarşı mübarizə periodlarında ön planda çıxış edir.

Beləliklə, ölkəmizin beynəlxalq təhlükəsizlik amilindəki yeri və rolu bütün konturlarla üzə çıxır - bu, digər dövlətlər tərəfindən də təsdiqlənir və dəyərləndirilir. Bakı bütün digər sahələrdə olduğu kimi, təhlükəsizlik məsələsində də regional mərkəz funksiyasını üstlənir. Prezident İlham Əliyev müraciətində vurğulayıb ki, Azərbaycan Respublikası müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib: "Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə - Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir".

### Vaşinqton Bəyannaməsi: Qlobal təhlükəsizlik üçün yeni mərhələnin başlanğıcı

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri arasında baş tutan görüş, imzalanan Birgə Bəyannamə beynəlxalq münasibətlər sistemində mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni müstəviyə yüksəldilməsi deyil, həm də bütövlükdə Avrasiya məkanında sabitliyin möhkəmlənməsi, sülhün təşviqi və qlobal təhlükəsizliyin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Ən əsası, bəyannamə sülh sazişinin imzalanması istiqamətində atılmış ən əsaslı və real addım kimi qiymətləndirilir. Belə bir sənədin imzalanması beynəlxalq sabitlik üçün ümidverici siqnaldır. Bu təşəbbüs müasir qlobal çağırışlara - terrorizmə, hərbi-siyasi risklərə, enerji böhranlarına və iqtisadi qeyri-müəyyənliyə qarşı daha koordinasiyalı yanaşmanı zəruri edir. Vaşinqton bəyannaməsi məhz bu baxımdan yalnız regional deyil, qlobal təhlükəsizlik mühitinə əlavə dəyər gətirir.

Sənədin iqtisadi aspekti də xüsusi vurğulanmalıdır. Avrasiya məkanının mühüm dövlətləri arasında sabitliyin təmin olunması ticarət yollarının təhlükəsizliyini, nəqliyyat dəhlizlərinin dayanıqlı fəaliyyətini və enerji marşrutlarının etibarlılığını daha da gücləndirir. Bu, həm region ölkələri, həm də Avropa və Asiya üçün yeni iqtisadi imkanlar deməkdir. Yəni bəyannamə yalnız siyasi sabitlik aktı deyil, eyni zamanda, Avrasiyanın inteqrasiyasına və iqtisadi əməkdaşlığın dərinləşməsinə yol açan strateji sənəddir. Bir sözlə, 8 avqust tarixli Vaşinqton bəyannaməsi ikitərəfli münasibətlərin çərçivəsini aşaraq qlobal təhlükəsizlik arxitekturasının mühüm elementi kimi çıxış edir. Prezident İlham Əliyev müraciətində qeyd edib ki, 2025-ci ilin avqust ayının 8-də Vaşinqtonda ABŞ-ın şahidliyi ilə Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamə imzalanmışdır: "Beləliklə, ölkələrimiz arasında uzun müddət davam edən münaqişəyə son qoyulması və sülh sazişinin imzalanması istiqamətində mühüm tarixi addım atılmışdır. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması təkcə bizim region üçün deyil, eləcə də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa üçün yeni əməkdaşlıq imkanları yaradacaqdır".

### Qlobal təhlükəsizliyə töhfə: Bakı Təhlükəsizlik Forumu ənənəvi platformaya çevrilir

Bu bir həqiqətdir ki, müasir dövrdə heç bir dövlət təkbaşına qlobal təhlükəsizlik problemlərini həll edə bilməz. Buna görə də ölkələr arasında koordinasiya, həmrəyliyin artırılması və kəşfiyyat məlumatlarının paylaşılması həyati əhəmiyyət daşıyır. Qlobal səviyyədə baş verən hər bir təhlükə yalnız lokal deyil, bütün beynəlxalq sistemə təsir edir. Məhz bu səbəbdən Azərbaycan təhlükəsizlik siyasətini milli çərçivədən çıxararaq beynəlxalq əməkdaşlığa yönəldib. Ölkəmizin təşəbbüsü ilə keçirilən və artıq ənənəvi hal alacaq Bakı Təhlükəsizlik Forumu müasir təhlükəsizlik çağırışlarına cavab verən unikal platformadır. Forumun əhəmiyyəti bir neçə aspektdə özünü göstərir:

- Regional və qlobal kəsişmədə yerləşmə: Bakı Asiya ilə Avropanı, Şimal ilə Cənubu birləşdirən strateji məkandır. Bu, forumun coğrafi çəkisini artırır;
- Təhlükəsizlik və kəşfiyyat əməkdaşlığı: Forum müxtəlif ölkələrin təhlükəsizlik və kəşfiyyat strukturlarını bir araya gətirərək təhdidlərə qarşı koordinasiyalı cavab imkanlarını gücləndirir;
- Qlobal dialoqa töhfə: Burada səslənən fikirlər və müzakirələr beynəlxalq təhlükəsizlik gündəliyinə yeni baxış gətirir.

Şübhəsizdir ki, bu tədbir həm də ölkəmizin qlobal təhlükəsizlik arxitekturasında etibarlı tərəfdaş kimi tanınmasının növbəti sübutu kimi ortaya çıxır. Azərbaycan geosiyasi gərginliklərin hökm sürdüyü dünyada beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılması və qlobal həmrəyliyin təmin olunması prosesində balanslı siyasəti, sülh təşəbbüsləri və qlobal əməkdaşlığa verdiyi dəstək ilə mühüm rol oynayır. Bakı Təhlükəsizlik Forumu isə qlobal təhlükəsizlik arxitekturasının gələcək inkişafı üçün yeni imkanlar açır və Azərbaycanın beynəlxalq miqyasda strateji rolunu daha da gücləndirir. Prezident İlham Əliyev müraciətində bildirib ki, keçən il Bakı Təhlükəsizlik Forumunun ənənəvi olaraq hər il təşkil edilməsi və davamlı fəaliyyət göstərməsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təklif iştirakçı ölkələr tərəfindən fəal şəkildə dəstəklənmişdir: "Bununla əlaqədar olaraq ötən müddət ərzində Bakı Təhlükəsizlik Forumunun Təşkilat Komitəsinin və onun Katibliyinin təsis edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Hazırkı iclasda əldə olunmuş ümumi razılıq əsasında Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və ondan irəli gələn təşəbbüslərin qəbul olunması nəzərdə tutulur. Bütün bunlar Forumun təsisatlanması istiqamətində atılmış mühüm addımlardır. Azərbaycan Təşkilat Komitəsinin işinin koordinasiyası funksiyasını öz üzərinə götürərək Bakı Təhlükəsizlik Forumuna öz dəstəyini verməyə davam edəcəkdir".

*Pərviz SADAYOĞLU*

# Sərmayələrin təşviqi üçün nümunəvi platforma

## Birinci Beynəlxalq İnvestisiya Forumu kapital, texnologiya və biznes ideyalarının Azərbaycana gətirilməsini stimullaşdıracaq

Sentyabrın 22-də Prezident İlham Əliyevin himayəsi altında Bakıda Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu işinə başlayıb. İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun təşkilatçılığı, Avropa Evi - "Ambrosetti"nin (TEHA) strateji tərəfdaşlığı, həmçinin "Euronews" və "Sea Breeze"in media və təşkilati dəstəyi ilə keçiriləcək forumda dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorlar iştirak edir. Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov forum iştirakçılarına Prezident İlham Əliyevin müraciətini oxuyub.

Müraciətdə vurğulanır ki, Azərbaycanda ilk dəfə keçirilən İnvestisiya Forumu qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin müzakirəsi, ölkəyə yeni investisiyaların cəlb olunması üçün mühüm platformadır.

### 2004-2024-cü illər ərzində iqtisadiyyata 344,4 milyard dollar investisya qoyulub

Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verən, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradılıb. Məhz bu səbəbdən 2004-2024-cü illər ərzində iqtisadiyyata 344,4 milyard dollar həcmində sərmayə qoyulub, onun əhəmiyyətli hissəsi və ya 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə etdiyimiz etimad sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi seçirlər.

Öz dayanıqlı inkişaf yolunda irəliləyən Azərbaycanda iqtisadi artım son 20 ildə uzunmüddətli sabit trendə çevrilib və hər il ümidverici artım nümayiş etdirir. 2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7 faiz artıb və ümumi iqtisadiyyatda payı 68 faizə yüksəlib. Qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artıb, Bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir.






Ölkəmizdə əldə edilən nailiyyətlər ölkədə müasir istehsal infrastrukturunun qurulması ilə dəstəklənib. Azərbaycanda hazırda 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir ki, sənaye zonalarında 171 müəssisə qeydiyyata alınıb və 98-i artıq istehsal fəaliyyətinə başlanılıb. Sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb, 11 minə yaxın daimi iş yeri yaradılıb. Sənayeləşmədə xüsusi işgüzar fəallığı ilə seçilən Qarabağ

### Ölkəmizin maliyyə gücü artıb, xarici borcu ən aşağı həddə düşüb

və Şərqi-Zəngəzurda yaradılan sənaye parkları da sənaye istehsalının əsas sütununu təşkil edir. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb. Hazırda Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə investisiya kapitalı 350 milyon manatdan çox olan 40-dan çox rezident fəaliyyət göstərir. Bu sənaye obyektləri bölgənin sürətli inkişafına və ümumilikdə ölkə iqtisadiyyatına reinteqrasiyaya imkan yaratmaqdadır.

İqtisadiyyatın digər sektorlarında tətbiq olunan qabaqcıl ideyalar və dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin əlaqələndirilməsi və digər islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4 faizə yüksəlib.

Həyata keçirilən qətiyyətli islahatlar Azərbaycanın maliyyə gücünü də artırıb, 2025-ci ildə 2017-ci ilə nəzərən dövlət büdcəsinin gəlirləri 2,4 dəfə, strateji valyuta ehtiyatları 1,9 dəfə artıb, dövlətin xarici borcunun ümumi daxili məhsula nisbəti isə 6,5 faizə düşərək dünya üzrə ən aşağı göstəricilərdən birinə çevrilib.

### Azərbaycan həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşdır

Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Bu imkanlar ölkəmizin nəqliyyat, dəniz limanı, dəmir yolu və avtomobil yolu infrastrukturuna böyük vəsait yatırır, rəqəmsal transformasiya istiqamətində də mühüm irəliləyiş əldə etməkdədir. Qlobal nəqliyyat arteriyasının aparıcı habına çevrilmiş Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir. Eyni zamanda, xüsusi iqtisadi zonalar, müasir nəqliyyat və rəqəmsal infrastruktur istehsal, logistika, bərpa olunan enerji, rəqəmsal xidmətlər və yüksək dəyərli kənd təsərrüfatı üçün hazır platformalar təqdim edir.

Azərbaycanın yürütdüyü enerji siyasəti beynəlxalq iqtisadi mövqeyinin güclənməsində də mühüm rol oynayır. Ölkəmiz hazırda bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşıdır. Təbii qazla yanaşı, Günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirir. Beləliklə, Azərbaycan həm bugünün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın yaşıl iqtisadiyyatını qurur.

Ənənəvi enerji sahəsindəki uğurlarımız bu gün rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynamaq üçün mövqelərini daha da möhkəmləndirir.

### "Fitch" və "Moodys" ölkəmizin reytinqini investisiya dərəcəsinə yüksəldib

Baş nazirin müavini Samir Şərifov bildirib ki, Azərbaycan güclü maliyyə bazasına, makroiqtisadi və makromaliyyə sabitliyinə, əlverişli biznes mühitinə malik olması dünyanın nüfuzlu institutlarının hesabatlarında da öz əksini tapır. "Dünya Bankının 'Business Ready" sorğusunun nəticələri, eləcə də aparıcı beynəlxalq kredit reytinq agentliklərinin qərarları göstərir ki, Azərbaycanın mövqeyi son illərdə əhəmiyyətli dərəcədə yaxşılaşıb. "Fitch" və "Moodys" beynəlxalq reytinq agentlikləri ölkəmizin reytinqini investisiya dərəcəsinə yüksəldib.

Forumda regionların strateji inteqrasiyası, tranzit imkanları, enerji və infrastruktur layihələri, innovasiyalar, yaşıl enerji, daşınmaz əmlak, şəhərsalma və dayanıqlı inkişaf, dövlət-özəl tərəfdaşlığı, maliyyə, səhiyyə, biotexnologiya, əczaçılıq və rəqəmsal sağlamlıq, kənd təsərrüfatı, aqrobiznes, ərzaq sənayesi, sənayeləşmə, kiçik və orta sahibkarlıq, yaşıl keçid, eləcə də sahibkarlığın inklüzivliyi mövzularında faydalı müzakirələr aparılıb. "Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov Bakıda çıxışı zamanı bildirib ki, Azərbaycan investisiya üçün çox əlverişli ölkədir, investisiya imkanlarının yaradılması iş adamları və şirkətlər üçün imkan və fürsətlər yaradır. Bundan istifadə edib Azərbaycana sərmayə yatırmaq əlverişli perspektivlər vəd edir. "See Breeze" böyük bir layihədir və çox geniş ərazini əhatə edir. Ərazi və tikinti işləri daha da genişlənəcək və inkişaf edəcək. "See Breeze" ərazisinə də sərmayə yatırımı çox səmərəlidir. Azərbaycanda yaradılan münbit şəraitdən istifadə edib sərmayə yatırımını həyata keçirmək olduqca faydalıdır.

Çıxış edən digər biznes nümayəndələri və iqtisadçılar Azərbaycanda investorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli münbit şəraitinin yaradılması, Rəqabət Məcəlləsinin qüvvəyə minməsindən sonra sərmayə cəlbediciliyinin artırılması və digər istiqamətlərdə həyata keçirilən islahatların əhəmiyyətinə toxunublar.

Birinci İnvestisiya Forumunda mühüm sənədlər də imzalanıb. Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanan "Şəhər içində şəhər" Konsepsiyasının inkişafı üzrə əməkdaşlıq sazişi müasir şəhərsalma prinsipləri, "yaşıl şəhərsalma"ya keçid və digər qabaqcıl sənaye texnologiyalarının tətbiqi üçün imkanlar yaradır. Habelə, Azərbaycan və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında "Xəzər dənizində Suyun Duzsuzlaşdırılması Zavodunun layihələndirilməsi, tikintisi, istismarı və texniki xidməti üzrə saziş" imzalanıb. Saziş dizayn, tikinti, maliyyələşdirmə, istismar və texniki xidmət mərhələlərini əhatə edir. Layihə regionda su ehtiyatlarının səmərəli idarə olunmasına və içməli su təminatının artırılmasına yönəlib. Bundan əlavə, forumda "Emal olunmuş suyun alınmasına dair saziş" sənədi də imzalanıb.

Beləliklə, Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu əməkdaşlıq və sərmayə cəlbinin yeni mərhələsi üçün başlanğıcdır. Forum innovativ biznes ideyalarının reallaşdırılması və əlverişli işgüzar imkanların genişləndirilməsi üçün yeni imkanlar açacaq, kapital, texnologiya və ideyaların Azərbaycana gətirilməsini stimullaşdıracaq.

*ELBRUS CƏFƏRLİ*

# Nəqliyyatda dayanıqlı xidmət və təhlükəsizlik naminə

Prezident İlham Əliyevin imzaladığı "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman sərnişindaşıma və şəhər nəqliyyatının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm yenilikləri özündə əks etdirir. Belə ki, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlılığının və davamlılığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla bu sahədə fəaliyyət göstərən daşıyıcıların işinin səmərəli təşkili məqsədilə dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu yaradılacaq.

## Ödənişli hərəkət zonalarının yaradılması sərnişindaşımada ekoloji təmiz nəqliyyat parkının güclənməsinə səbəb olacaq

### "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun maliyyə mənbələri

Növbəti ilin əvvəlindən fəaliyyətə başlayacaq fond 2 mənbədən formalaşmaqla şəhər nəqliyyatında tələb olan zəruri ehtiyacları təmin edəcək. Birinci mənbə avtomobil benzininin, dizel yanacağının və maye qazın hər litrinə görə yol vergisinin müəyyən hissəsi fondun portfelində yer alacaq. Ölkəmizdə avtomobil nəqliyyatı vasitələri hər il yol vergisi ödəyir ki, həmin pular məqsədli büdcədənkənar fondda cəmləşir. Yeniliyə əsasən, həmin vergilər həm də "İctimai nəqliyyat" Məqsədli Büdcə Fonduna köçürüləcək.

Fondun digər maliyyə mənbəyi nəqliyyat vasitələrinin Bakı şəhərinin inzibati ərazisində müəyyən edilmiş ödənişli hərəkət zonalarına daxil olmasına görə ödənilən haqdan formalaşacaq. Bu o deməkdir ki, Nazirlər Kabineti və müvafiq dövlət qurumları, o cümlədən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Yerüstü Nəqliyyat Agentliyi paytaxtın mərkəzi hərəkət zolaqlarında ödənişli zonaların sərhəd və cizgilərini müəyyənləşdirəcək. Qarşıdakı üç ay ərzində Bakı şəhərinin inzibati ərazisində ödənişli hərəkət zonaları və nəqliyyat vasitələrinin həmin zonalara daxil olmasına görə haqqın məbləği də müəyyənləşəcək. Həmçinin həmin yollara giriş və çıxış xətləri, ödəmənin növləri və digər məsələləri həll edəcək.

### Ekoloji təmiz nəqliyyat vasitələri subsidiya əldə edəcək

"İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun vəsaitlərinin dövlət büdcəsi tərkibində təsdiq olunmuş xərclər dairəsində sərəncamçısı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi olacaq. Yerüstü Nəqliyyat Agentliyi isə 2026-cı il yanvarın 1-dək inzibati ərazilərdə müntəzəm sərnişin daşınmalarına ehtiyacın və əlçatanlığın təmin edilməsi, sərnişin axınının intensivliyi və ya avtomobil nəqliyyatı xidmətinin davamlılığı nəzərə alınmaqla marşrutların cədvəlini hazırlayacaq. Agentliyin müəyyən etdiyi marşrutlar üzrə daşıyıcıların avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma xidmətləri göstərməsi nəticəsində yaranan xərcləri kompensasiya olunacaq. Subsidiyalaşma adlanan bu mexanizm əsasında nəqliyyat daşıyıcılarının ehtiyacları təmin ediləcək.

Subsidiyalar Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində ekoloji baxımdan müasir tələb və normalara cavab verən, ödəmə kartları və ya nağdsız ödəniş sisteminə keçirilmiş nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara veriləcək. Sıxılmış təbii qazla işləyən mühərriklə təchiz edilmiş avtobuslar, elektrik mühərriki ilə təchiz edilmiş avtobuslar və ya elektromobillər subsidiyadan faydalansa da, digər nəqliyyat vasitələri, yəni dizel, benzin, həmçinin istismar müddəti köhnəlmiş avtobuslar fondun maliyyə portfelindən dəstək ala bilməyəcək. Gəncə şəhərinin inzibati ərazisinə münasibətdə həmçinin istehsal tarixi 2025-ci il yanvarın 1-dən sonra olan dizel mühərrikli avtobuslar da subsidiyalaşma bankına daxil olacaq.



Qeyd edək ki, nəqliyyat sektorunda tətbiq edilən bu yenilik uzun illərdir müzakirə olunan, böyük şəhərlərin təcrübəsində özünü doğrultmuş nəqliyyat idarəetmə modelinin Azərbaycanda tətbiqini nəzərdə tutur. Əsas məqsəd paytaxtın sıx küçə və prospektlərində tıxacların qarşısını almaq, yol hərəkətinin təhlükəsizliyini təmin etmək və ictimai nəqliyyatdan istifadənin stimullaşdırılmasıdır. Hazırda təkcə Bakı şəhərində 4000-ə yaxın avtobus sərnişindaşıma işinə cəlb olunsa da, onların yarısından çoxu dizellə işləyir, əsasən də Bakıətrafı ərazilərə və kəndlərə işləyən marşrutların nəqliyyat parkı köhnədir. Bu isə o deməkdir ki, şəhər nəqliyyatında minlərlə avtobus subsidiya

### "Yaşıl nəqliyyat" modelinə keçid

ala bilməyəcək. Hökumətin məqsədi də məhz şəhər nəqliyyatında daha müasir və ekoloji baxımdan müasir tələblərə cavab verən nəqliyyat arxitekturasının qurulmasından ibarətdir. Çünki köhnə avtobuslar sərnişindaşımada həm keyfiyyətli xidməti təmin edə bilmir, həm sərnişinlərin həyatı üçün təhlükə törədir, həm də şəhərdə karbon emissiyasını artırır. Azərbaycan iqlim öhdəliklərini üzərinə götürmüş ölkə kimi karbon dioksidin azaldılmasını hədəfləyir və şəhərin sənaye, tikinti, nəqliyyat və digər bölmələrində ətraf mühiti çirkləndirən amillərin qarşısını almağa çalışır. Bu baxımdan şəhərə ən çox zərər verən yararsız və istismar müddəti bitmiş avtobusların tədricən hərəkət xəttindən çıxarılması aktual çağırışlardandır. Dövlət başçısının müvafiq fərmanı da həmin hədəf prinsiplərinə çatmaq üçün kompleks tədbirlər planının tərkib hissəsidir. Bu tənzimləmə üsulu şəhərin ekologiyasına da müsbət təsir göstərəcək, şəxsi avtomobillərdən istifadənin azalması nəticəsində havaya atılan zərərli tullantıların miqdarı da aşağı düşəcək.

*E. CƏFƏRLİ*

# İqtisadi münasibətlərdə yeni mərhələ

## Ruanda ilə Azərbaycan arasında imzalanan sazişlər iqtisadi əməkdaşlığın inkişafı üçün əsaslı zəmin yaradır

Afrika ölkələri ilə Azərbaycan arasında iqtisadi sahədə əlaqələr ötən əsrin sonlarında qurulsa da, intensiv əməkdaşlıq təmasları son illərdə yüksələrək davamlı xarakter almağa başlayıb. Afrika Birliyi Təşkilatının qitə ölkələrinin dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə bağlı atdığı iradəli addımlar bir çox region dövlətləri, o cümlədən Azərbaycanla münasibətlərin inkişafında yeni mərhələ açıb. 2011-ci ilin 15 yanvar tarixindən etibarən Azərbaycanın Afrika İttifaqı (Aİ) yanında müşahidəçi statusu alması isə müxtəlif iqtisadi bölmələrdə əlaqələrin qurulması üçün əsaslı zəmin yaradıb.

Respublikamızın qitə dövlətlərindən Ruanda ilə beynəlxalq və regional təşkilatlarda fəal əməkdaşlığı, eyni zamanda, hökumət heyətlərinin qarşılıqlı səfərlərinin artması və mühüm sənədlərin imzalaması münasibətlərdə ciddi keyfiyyət dəyişikliklərinə səbəb olub.





### "ASAN xidmət" brendi Ruandada

Post-pandemiya dövründə isə Bakı ilə Kiqali arasında iqtisadi təmaslar üçün dialoqlar artaraq dayanılqı zəmin alıb. Ötən il Bakıda keçirilən COP29-da iştirak edən Ruandanın dövlət başçısı Azərbaycanın iqlim təşəbbüskarlığını yüksək dəyərləndirib və Cənab İlham Əliyevlə görüşdə iqtisadi əməkdaşlıq və humanitar məsələlər müzakirə olunub. Həmin görüş zamanı Azərbaycan hər zaman iqlim dəyişikliyinin təsirlərinə daha çox məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin və Afrika ölkələrinin problemlərinə xüsusi diqqət yetirdiyi vurğulanıb. Qeyd edək ki, Bakıda tarixi qərar qəbul olunaraq, COP29-da inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlaması təmin edib. Bu imkanlardan bəhrələnən ölkələrdən biri kimi Ruanda Azərbaycanın bu liderlik keyfiyyəti sayəsində ekoloji proqramlar həyata keçirmək üçün dayanıqlı mənbəyə çıxış əldə edib.

Sentyabrın 20-də Azərbaycanda səfərdə olan Ruanda Prezidenti Pol Kaqame ilə Prezident İlham Əliyev arasında keçirilən görüşlər və aparılan faydalı müzakirələr münasibətlərdə yeni mərhələnin əsasını qoyub. Görüş zamanı iqtisadi-sosial və enerji sahələrində bir sıra zəruri layihələrin icrası üçün potensial imkanlar olduğu diqqətə çatdırılıb. Azərbaycanın dövlət başçısının vurğuladığı kimi bu səfər ikitərəfli münasibətlərə əlavə təkan verəcək, əməkdaşlığımızı genişləndirəcək.

Tərəflər arasında əməkdaşlığın nümunəvi formalarından biri müasir şəffaflıq idaretmə modeli olan "ASAN xidmət" brendinə oxşar qurumun Ruandada yaradılmasıdır. Səfər çərçivəsində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Ruanda İnkişaf Şurası arasında qabaqcıl dövlət xidmətlərinin göstərilməsi mexanizminin yaradılması barədə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun həyata keçirilməsi üzrə Əməkdaşlıq Proqramı"nın imzalanması "ASAN Xidmət" modelinin tətbiqini konkretləşdirəcək. Azərbaycanın Ruandada bu modelin qurulması üçün texniki və maliyyə yardımını göstərə biləcəyi istisna olunmur.

**Bakıda tarixi qərar qəbul olunaraq, COP29-da inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlaması təmin edilib. Bu imkanlardan bəhrələnən ölkələrdən biri kimi Ruanda Azərbaycanın bu liderlik keyfiyyəti sayəsində ekoloji proqramlar həyata keçirmək üçün dayanıqlı mənbəyə çıxış əldə edib**

### KOB-ların müştərək fəaliyyət hədəfləri

Hər iki ölkə digər istiqamətlərdə də fəal çalışır və əməkdaşlığın gücləndirilməsi üçün potensial hesab edilən sahələrdəki vəziyyəti tədiq edir. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ruanda Respublikasının Kənd Təsərrüfatı və Heyvan Ehtiyatları Nazirliyi arasında Anlaşma Memorandumu" aqrar sahədə əməkdaşlıq üçün yeni xətt açır və əsas etibarilə kənd təsərrüfatı ölkəsi olan Ruandanın aqrar inkişafı üçün qabqacıl texnoloji tətbiqlərə yol açır.

"Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Ruanda Respublikasının İnkişaf Şurası arasında Anlaşma Memorandumu" isə biznes sektorunda əlaqələndirmə və birgə fəaliyyət prinsiplərini əks etdirir. Eyni zamanda, kiçik və orta sahibkarlıq subyektlərinin qarşıqılıqlı təmsilçilik mübadiləsinə şərait yaradır. Qeyd edək ki, bir müddət əvvəl Ruandadan gələn nümayəndə heyəti Azərbaycanda səfərdə olarkən "Bakı KOB evi"nin fəaliyyəti ilə tanış olub. "KOB evi"nin təcrübəsi nümayəndə heyəti tərəfindən yüksək qiymətləndirilib və bu da qeyd olunan sahədə təcrübə mübadiləsi üçün geniş imkanlar açıb. Bu baxımdan yeni memorandum KOB və investorlar arasında münasibətlərin hüquqi-iqtisadi əsaslarını təmin etməklə müştərək iş planını tərtib edəcək.

**Azərbaycanın bərpaolunan enerji sektorunda fəal təşəbbüskarlığı və nüfuzlu investorlarla nəhəng layihələrə imza atması Ruanda ilə bu əməkdaşlığın yeni sahələrindən birinə çevrilə bilər**

### Dağ-mədən, turizm və "yaşıl enerji" sahələrində tərəfdaşlıq

Azərbaycan və Ruanda arasında qarşılıqlı ticarət, dağ-mədən sənayesi və turizm sahələrində tərəfdaşlıq imkanlarının inkişafı üçün kifayət qədər geniş potensial mövcuddur. Azərbaycan geostrateji mövqeyi sayəsində Ruandaya ixrac imkanlarını şaxələndirməyə və yeni bazarlara çıxmasına yardım edə bilər.

Tərəflər strateji sahələrdə də əməkdaşlıq edir. ADEX-2022 beynəlxalq müdafiə sərgisi çərçivəsində Azərbaycan ilə Ruanda arasında hərbi-texniki əməkdaşlıq haqqında razılaşma əldə olunub. Bu, ölkələr arasında münasibətlərin daha geniş xarakter aldığını göstərir. Habelə "yaşıl enerji" sahəsində əməkdaşlıq üçün münbit baza var. Azərbaycanın bərpaolunan enerji sektorunda fəal təşəbüskarlığı və nüfuzlu investorlarla nəhəng layihələrə imza atması Ruanda ilə bu əməkdaşlığın yeni sahələrindən birinə çevrilə bilər.

Beləliklə, Ruanda Prezidentinin Azərbaycana səfəri və sənədlərin imzalanması iki ölkə arasında münasibətləri formal əlaqələrdən faydalı və praktiki tərəfdaşlığa keçməklə yeni səviyyəyə qaldıracaq.

***E.CƏFƏRLİ***

# Sinifdə, stadionda, səhnədə...

## Vətənpərvərliyin cəbhəsi hər yerdədir!

Bir xalqın dirçəlişi və inkişafı onun gənclərinin ruhundadır. O ruhda vətən sevgisi yoxdursa, bayrağın dalğalanması yalnız görüntü, himnin səslənməsi isə yalnız bir melodiyaya çevrilər. Gənclərin qəlbində vətənə məhəbbət olmadan, heç bir inkişaf, heç bir tərəqqi həqiqi mənada mümkün deyil.

Vətənpərvərlik təkcə döyüş meydanında can vermək deyil. Bu, bir ömürlük borcdur, düşüncədə, davranışda, əməl və əqidədə. Gənclərə vətəni sevdirmək isə yalnız nəsihətlə deyil, nümunə ilə, əməllə, hisslərlə mümkündür. 21-ci əsrin çağırışları fonunda bu anlayış daha da aktuallaşır. Gənc nəslin sosial şəbəkələrdə, məktəbdə, universitetdə, elmdə, idmanda və sənətdə vətəni layiqincə təmsil etməsi də vətənpərvərlikdir.

Unutmayaq ki, bir düşüncənin arxasında vətən varsa, o artıq idealdır. Bir uğurun kökündə vətən sevgisi varsa, o uğur artıq millidir. Bir gəncin qəlbində vətən varsa, o gənc artıq əsgərdir, fərqi yoxdur həmin əsgər sinif otağında, stadionda, studiyada, yoxsa səhnədədir...

### Sadəcə tarix kitablarından məlumat verməklə iş bitmir

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Vasif Qafarov bildirib ki, vətənpərvərlik hissinin sağlam şəkildə inkişafı üçün ailə, təhsil, mədəniyyət və ictimai mühit birgə fəaliyyət göstərməlidir: "Bir gənc ilk növbədə kim olduğunu, hansı xalqın övladı olduğunu bilməlidir. Bu isə təkcə emosional yox, həm də şüurlu bir prosesdir.

Vətənpərvərlik tərbiyəsinin ilk pilləsi ailədir. Ailədə valideynlər öz davranışları ilə vətənə sevgi və hörmət nümayiş etdirməlidirlər. Təhsil sistemi də vətənpərvərlik hissinin inkişafında həlledici rol oynayır. Məktəblərdə bu mövzu yalnız dərslik səviyyəsində deyil, praktik fəaliyyətlərlə də gücləndirilməlidir. Şagirdlərə sadəcə tarix kitablarından məlumat verməklə kifayətlənmək olmaz. Onlar real qəhrəmanları tanımalı, muzeylərə, tarixi yerlərə səfərlər etməli, şəhid ailələri ilə görüşməli, vətənpərvərlik mövzulu layihələrdə iştirak etməlidirlər".



Zaman dəyişir, nəsillər dəyişir, amma vətənə olan sevgi dəyişməməlidir. Hər bir xalqın gələcəyi onun gəncliyindən asılıdır. Gənclik isə yalnız biliyə, texnologiyaya və müasir düşüncəyə deyil, eyni zamanda, milli-mənəvi dəyərlərə, vətənpərvərlik ruhuna bağlı olduqda güclü olur. Bu baxımdan, gənclərimizi vətənpərvər ruhda yetişdirmək yalnız bir vəzifə deyil, milli borcumuzdur.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

### Vətənpərvərlik həm də ruhun yanğısıdır...

Deputat qeyd edib ki, vətənpərvərlik təkcə keçmişə baxmaq deyil, bu günə və sabaha da sahib çıxmaqdır: "Gənclər anlamalıdır ki, vətəni qorumaq təkcə silahla deyil, elm ilə, zəhmətlə, dürüstlüklə də olur. Bu gün kompüter mühəndisi olan bir gənc düşmənin informasiya hücumlarına qarşı qalxan ola bilər. Sosial şəbəkədə vətənə qarşı deyil, vətən üçün danışan bir gənc ruhun savaşçısıdır. Bəli, bu gün gənclər texnologiyanın içindədir. Telefonlar, sosial şəbəkələr, trend olan videolar, amma bu platformalar da vətənpərvərlik üçün bir vasitəyə çevrilə bilər. Niyə biz öz qəhrəmanlarımızı tanıdan videolarla "trend" yaratmayaq? Niyə şəhid analarının danışdığı xatirələri paylaşmayaq? Gənc öz qəhrəmanını tanımalıdır ki, öz yolunu da tapa bilsin. Ümumiyyətlə, vətənpərvərlik yalnız müharibə dövründə yada salınmalı olan bir anlayış deyil. Bu, hər gün yaşanmalı olan bir dəyərdir.

Vətənpərvərlik tərbiyəsi həm də "qədirbilənlik tərbiyəsidir". Bu torpaq üstündə rahat yaşamağın bir bədəli olub. İgid oğlanlarımız canından keçib ki, sabaha ümidlə baxa biləjk. Gənclərə bu bədəli başa salmaq onları həm qürurlandırar, həm də məsuliyyət yükləyər. Unutmayaq ki, bu gün gənclərə vətən sevgisini aşılamasaq, sabah bu torpağın gələcəyini kim qoruyacaq? Vətənpərvərlik təkcə bir duyğu deyil, ruhun yanğısıdır. O yanğı ki, insanın içində bir dəfə alışdısa, ömrü boyu sönməz".

***Yeganə***

# Fələstini tanıyanlar artır

## G7 klubundan dəstək...

**Bir neçə gün öncə BMT Baş Assambleyasında 142 səs lehinə, 10 səs əleyhinə olmaqla, 1967-ci il sərhədlərində Fələstin dövlətinin yaradılmasını dəstəkləyən "Nyu-York Bəyannaməsi"nin qəbulunun ardından beynəlxalq aləmdə mühüm prosesə start verilib. Belə ki, son bir neçə gündə ard-arda Avropanın və ümumən qərbin bir sıra dövlətləri Fələstini rəsmi şəkildə tanıdıqlarını bəyan ediblər. Vurğulayaq ki, bu sıraya Kanada, Avstraliya və Böyük Britaniya (bir-birindən bir neçə dəqiqə fərqlə), ardından isə Portuqaliya daxil olub. Qeyd edək ki, Böyük Britaniya və Kanada G7-nin üzvləridir və "klub"da Fələstini tanıyan ilk ölkələr olub. Qərb ölkələri İsraillə dinc yanaşı yaşamaq istəyini əsas gətirərək Fələstini tanıdığını bəyan edib - onlar HƏMAS-ın yeni hökumətdə heç bir rolunun olmayacağını, Fələstində seçkilərin keçiriləcəyini vurğulayıblar.**

### Böyük Britaniya, Kanada, Avtraliya, Portuqaliya...

Böyük Britaniyanın baş naziri Kir Starmer Fələstini suveren dövlət kimi tanıyan rəsmi bəyanat yayıb. "75 il əvvəl biz İsrail Dövlətini yəhudi xalqının vətəni kimi tanıdıq. Bu gün biz Fələstin dövlətini də tanıyan 150-dən çox ölkəyə qoşuluruq. Bu, Fələstin və İsrail xalqlarına daha yaxşı gələcəyin mümkün olduğuna dair vəddir", - deyən Starmer qeyd edib ki, bu addım "Həmas üçün mükafat deyil", çünki bu, təşkilatın gələcək hökumətdə heç bir rolu olmayacaq. Baş nazir bəyan edib ki, London yaxın gələcəkdə HƏMAS-a qarşı sanksiyaları genişləndirəcək.

Öz növbəsində Kanadanın baş naziri Mark Karni bəyan edib ki, "İsrailin hazırkı hökuməti Fələstin dövlətinin yaradılmasının qarşısını almaq üçün metodik addımlar atır". "HƏMAS İsrail xalqını qorxudur və Qəzza xalqına zülm edir, dəhşətli iztirablara səbəb olur. HƏMAS-ın bütün girovları azad etməsi, tamamilə tərksilah olunması və Fələstinin gələcək idarəçiliyində heç bir rol oynaması vacibdir. HƏMAS Fələstin xalqının həyat və azadlıqlarını əlindən alıb. Qruplaşmanın bu xalqa gələcəyini diktə etmək hüququ yoxdur", - deyə Kanada hökumət başçısı bəyan edib.



Avstraliyanın baş naziri Entoni Albanese "X" sosial platformasında Fələstini tanıyan bəyanatla çıxış edib. Bəyanatda bildirilib ki, beynəlxalq ictimaiyyət Fələstin Muxtariyyətinə açıq tələblər qoyub: "Fələstin Muxtariyyətinin prezidenti İsrailin mövcud olmaq hüququnu təsdiqləyib və Avstraliya qarşısında birbaşa öhdəliklər götürüb, o cümlədən demokratik seçkilərin keçirilməsi, maliyyə, idarəetmə və təhsil sahələrində əhəmiyyətli islahatların aparılması ilə bağlı öhdəliklər götürüb".



### İsraildən bəyanat: "Bu, baş verməyəcək".

Baş verənlərə isə İsrail dövlətinin münasibəti birmənalıdır - ölkənin Baş naziri Binyamin Netanyahu cavab videomüraciətində "Bu baş verməyəcək. İordan çayının qərbində heç bir Fələstin dövləti qurulmayacaq" deyib. Baş nazir bildirib ki, illərlə daxildə və beynəlxalq təzyiqlərə baxmayaraq bu "terror dövlətinin" yaradılmasının qarşısını alıb və bundan sonra da Yəhudeya və Samariyada (Qərb sahilinin bəzi hissələri) yəhudi məskunlaşması artırılacaq.

### Proses davam edəcək...

Görünən budur ki, proses davam edəcək. Fransanın da bu həftə ərzində Fələstin dövlətini rəsmi şəkildə tanıyacağı gözlənilir. Fransa prezidenti Emmanuel Makron bildirib ki, bu addım yalnız simvolik bir jest deyil, həm də Yaxın Şərqdə davamlı sülhün bərqərar olunmasına yönəlmiş daha genişmiqyaslı təşəbbüslərin tərkib hissəsi olacaq. Makron vurğulayıb ki, Fransanın bu qərarı regionda gərginliyin azaldılması, dialoqun gücləndirilməsi və beynəlxalq hüquqa əsaslanan ədalətli həll yollarının dəstəklənməsi üçün mühüm əhəmiyyət daşıya bilər. Hətta "Politico" yazır ki, Makronun planları ABŞ-ın Qəzza zolağında İsrailə dəstəyinə qarşı "qlobal əks çəkinin mövcudluğunu" nümayiş etdirmək və "sülh üçün təzyiqi artırmaq" məqsədi daşıyır. Nəşrin mənbələrindən biri, bu yolla Avropanın beynəlxalq təzyiqlər artdıqca İsraildən güzəştlər götürmək planları haqda danışıb.

Lüksemburqun baş naziri Lyuk Friden və xarici işlər naziri Ksavyer Bettel də bir neçə gün öncə parlament komissiyasına ölkənin Fələstin dövlətini tanımaq niyyətində olduğunu bildiriblər. Bu barədə "Politico" məlumat yayıb. Yerli mətbuatın yazdığına görə, tanınma ilə bağlı yekun qərarın sentyabrın sonunda Nyu-Yorkda keçiriləcək BMT Baş Assambleyasında qəbul ediləcəyi gözlənilir. Bu addım Fransa və Belçika da daxil olmaqla bir sıra digər ölkələrlə razılaşdırılacaq.

### Fələstin nə edəcək - seçkilər, təhlükəsizlik və demilitarizasiya...

Qeyd olunmalıdır ki, səslənən bütün bəyanatlarda HƏMAS-ın Fələstinə nəzarət etməməli olması ön plana çəkilir və ya onun idarə olunmasında heç bir rolunun olmadığı vurğulanır - bildirilir ki, HƏMAS əlində olan bütün israilli girovları azad etməyə borcludur. Göründüyü kimi, Britaniyanın Baş naziri Starmer qruplaşmaya qarşı sanksiyaları genişləndirmək niyyətində olduğunu açıqlayır - Fələstin inklüziv seçkilər keçirməyi öhdəsinə götürüb. Kanadının Baş naziri Karninin də qeyd etdiyi kimi, Fələstin Administrasiyası Kanada və beynəlxalq ictimaiyyətlə birlikdə gələn il seçkilərin keçirilməsi, Fələstin dövlətinin demilitarizasiyası və digər islahatların baş tutması üçün çalışır.

Fələstinin xarici işlər naziri Varsen Ağabekian Şahin isə bəyan edib ki, dövlətin tanınması iki dövlət həllini qoruyan və Fələstinin müstəqilliyini və suverenliyini yaxınlaşdıran bir addımdır. İsrail Xarici İşlər Nazirliyi isə Avstraliya, Böyük Britaniya və Kanadanın Fələstini tanımaq qərarını tənqid edərək, bunu HƏMAS üçün "mükafat" adlandırıb. "The Times of Israel" xəbər verir ki, İsrailin milli təhlükəsizlik naziri İtamar Ben-Qvir cavab olaraq Nazirlər Kabinetinin növbəti iclasında İordan çayının qərb sahilinə nəzarətin yaradılmasını təklif edəcəyini və Fələstin Muxtariyyətinin ləğvini tələb edəcəyini deyib.

*SADİQ*

# Yelisey Sarayı demokratiya imtahanından "2" alır

## Fransada dərinləşən böhran

**Fransa tarixində yaşanan bir neçə inqilab təkcə bu ölkənin deyil, bütövlükdə dünyanın inkişafına yeni istiqamət verib. Bir çox cəmiyyətlər bu inqilablardan təsirlənməklə siyasi quruluşları və hakimiyyətləri dəyişməyə nail olublar. Təbii ki, Fransada inqilablar təsadüfən və yaxud hansısa sosial təbəqələrin şıltaqlığı ucbatından baş vermirdi - zaman-zaman bunlara zəmin yaradan çoxsaylı faktorlar meydana çıxırdı və insanlar ilk növbədə diskriminasiyaya, dözülməz həyat şəraitinə etiraz əlaməti olaraq küçələrə çıxırdılar. Onlar həyatda qalmağın yeganə yolunu küçə və meydanlarda barrikadalar qurub qəti etirazlara qalxmaqda görürdülər. Bu günlərdə Parisdə və əyalətlərdə yaşananlar onu deməyə əsas verir ki, inqilablar dövrü Fransanın həyatına yenidən qayıdıb.**

### Bütün ölkəni bürüyən etiraz dalğası

Fransa artıq bir neçə gündür ki, kütləvi etirazlarla çalxalanır. Küçələrə çıxan etirazçılar ölkədəki total böhrana görə Yelisey Sarayını günahlandırırlar. Xatırladaq ki, cari ilin yayında Fransada siyasi partiyalar və həmkarlar ittifaqlarından kənar vətəndaş təşəbbüsləri tərəfindən irəli sürülən "Hər şeyi dayandırmaq!" çağırışı ölkə üzrə sosial şəbəkələrdə geniş yayılmağa başlayıb. Bu təşəbbüsün anonsu edilərkən məqsədin sentyabrın 10-dan etibarən ölkənin tam iflic vəziyyətə salınması olduğu bildirilirdi. Sosial şəbəkələrdə yayılan mesajlarda təşəbbüskarlar insanları boykot, itaətsizlik və həmrəylik vasitəsilə ölkədə bütün sahələrdə işlərin dayandırılmasına - tətil etməyə çağırırdılar. "2025-ci il sentyabrın 10-dan başlayaraq tam və limitsiz tətilə gedirik... Artıq ödəmirik, istehlak etmirik, işləmirik... Bizim yeganə gücümüz TAM BOYKOT-dur", - deyə sosial şəbəkələrdə edilən paylaşımlarda vurğulanırdı.

Eyni zamanda, bəzi həmkarlar ittifaqları da prosesə qoşulublar. Belə ki, Ümumi Əmək Konfederasiyası (CGT) (kimya, ticarət və enerji sektorları) və "Force Ouvriere1" sentyabrdan tətil xəbərdarlığı elan edib. "Əyilməz Fransa" partiyasının lideri Jan-Lük Melenşon hərəkatın müstəqilliyini vurğulasa da, ona dəstəyini ifadə edib.

"TAM BAYKOT" tətili bəyan edildiyi tarixdən start götürüb və hələ də davam etməkdədir. Fransa mətbuatında yer alan operativ xəbərlərdən bəlli olur ki, ümummilli tətil çərçivəsində apteklərin təxminən 90 faizi bağlanıb. Bu barədə Əczaçılar Federasiyası məlumat yayıb. Əczaçılar, xüsusilə, sentyabrın 1-dən qüvvəyə minən və səhiyyə xərclərinin azaldılmasına yönəlmiş tədbirlərə qarşı çıxırlar. Əczaçılıq assosiasiyalarının fikrincə, bu tədbir apteklərin bağlanmasına və iş yerlərinin itirilməsinə səbəb ola bilər.




Fermerlər Fransanı bürüyən etirazların ən fəalları sırasında yer alırlar. Məlum olduğu kimi, bu sosial təbəqə Makron iqtidarının siyasətinə etiraz əlaməti olaraq bundan əvvəl əyalətlərdə "peyin inqilabı"na başlamışdı. Hərəkat genişlənərək hətta qonşu ölkələrə də yayıldı. Fermerlərə hakimiyyət tərəfindən müəyyən vədlər verilsə də, problemlər hələ də həllini tapmayıb. Buna görə də onlar "TAM BAYKOT" etirazlarına dəstəklərini bildiriblər. Fransa fermerlərinin aparıcı həmkarlar ittifaqlarından biri olan Fermerlər İttifaqlarının Milli Federasiyası (FNSEA) üzvlərini sentyabrın 25-də ölkə boyu nümayiş keçirməyə çağırıb. Bunu federasiyasının prezidenti Arno Russo "Journal du Dimanche" nəşrinə müsahibəsində deyib. "Bütün Fransada genişmiqyaslı aksiya təşkil etmək qərarına gəldik", - deyə o bildirib.



Qeyd olunub ki, FNSEA Avropa İttifaqı ilə Cənubi Amerika Ümumi Bazarının (MERCOSUR) razılaşmasına, ABŞ-ın tariflərinə və fransız fermerlərinin gözləntilərinə cavab verməyən standartlara uyğun malların idxalına etiraz etmək niyyətindədir. FNSEA-dan bildirilib ki, fermerlər etirazlar çərçivəsində standartlara cavab verməyən məhsullar aşkarlamaq üçün böyük mağazalara daxil ola bilərlər.

Fransa Daxili İşlər Nazirliyi mitinqlərdə 500 mindən çox insanın iştirak etdiyini açıqlayıb. Fransa Həmkarlar Konfederasiyasının hesablamalarına görə isə küçələrə 1 milyondan çox insan çıxıb.

### Paris küçələrində, əyalətlərdə boğulan demokratiya

Yelisey Sarayının hər zaman demokratiyanı milli dövlətlərə qarşı təzyiq alətinə çevirdiyi hər kəsə yaxşı bəllidir. Makronun komandasının üzvləri müxtəlif auditoriyalarda yeri gəldi-gəlmədi demokratiyadan danışır, öz ölkələrində hüquqi dövlət quruculuğundan çıxış edən liderləri kəskin tənqid atəşinə tuturdular. İndi isə Makronun özü və ətrafı əsl demokratiya sınağı ilə üz-üzədir. Sentyabrın 10-dan başlayan etirazların ilk günündən müşahidə edilən proseslərdən hasil olunan qənaət ondan ibarətdir ki, Yelisey Sarayının demokratiya imtahanından qiyməti ikidir.

Hakim komanda etirazları ən qəddar formada səngitməyə çalışır və buna nail olmaqdan ötrü müxtəlif repressiya tədbirlərinə əl atır. Son məlumatlara görə, Fransada hökumətin sosial xərclərin azaldılması planlarına qarşı keçirilən etiraz aksiyalarında 300-dən çox insan saxlanılıb. Polis etirazçıları dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edir. Bütövlükdə, hakimiyyət tətil dalğasının qarşısını almaq məqsədilə 80 mindən çox polis və jandarmı, həmçinin saysız-hesabsız zirehli texniknı səfərbər edib.

### Yeni hökumətə etimadsızlıq anonsu

Fransada insanların kütləvi şəkildə "TAM BAYKOT" tətilinə qoşulmalarını şərtləndirən ən mühüm amillərdən biri hökumətin sərt büdcə siyasətinə keçidin zəruriliyindən çıxış etməsidir. Bu gün Fransa iqtisadiyyatında tənəzzül meylləri güclənib, büdcədə ciddi kəsirlər yaranıb, həmçinin dövlət borcu heç vaxt olmadığı qədər artıb. Hökumət yaranmış iqtisadi böhrandan çıxış yolunu sərt büdcə siyasətində görür. Cəmiyyət isə bunu optimal həll yolu hesab etmir. Çünki sərt büdcə siyasəti özündə ilk növbədə sosial xərclərin azaldılmasını ehtiva edir. İnsanlar isə bildirirlər ki, onların qənaət limiti artıq çoxdan tükənib.

Buna görə də ölkəni bürüyən etirazlarla paralel şəkildə, hökumət böhranı da səngimək bilmir. Fransa Milli Assambleyası oktyabrda işə başladıqda sol müxalifət yeni baş nazir Sebastyen Lekornunun rəhbərlik etdiyi kabinetə etimadsızlıq təklifini parlamentində səsverməyə çıxarmaq niyyətindədir. Bu barədə "Tabe olmayan Fransa" solçu partiyasının milli koordinatoru Manuel Bompard "X" sosial şəbəkə hesabında yazıb.

"Biz danışıqlar barədə komediya oynamaq fikrində deyilik və Lekornu haqqında etimadsızlıq qətnaməsi təqdim edəcəyik", - deyə o yazıb.

M.Bompardın sözlərinə görə, bu da ölkənin siyasi kursunu dəyişmək üçün kifayət etməyəcək. "Prezident Emmanuel Makronla siyasətdə heç bir dəyişiklik ola bilməz. Etirazların nəticəsi onun istefası olmalıdır", - deyə Bompard bildirib.

*Mübariz FEYİZLİ*

# "Baqram"a dönüş planı...

## Vaşinqton yenidən Əfqanıstan yolunda

**ABŞ yenidən üzünü Asiyaya tutur. Belə ki, Vaşinqton administrasiyası Əfqanıstanın Baqram hava bazasına nəzarəti dərhal ABŞ-a qaytarmasını istəyir. Bunu ABŞ Prezidenti Donald Tramp jurnalistlərə açıqlamasında deyib: "Hazırda Əfqanıstanla danışırıq. Biz onun geri qaytarılmasını istəyirik. Tezliklə, indi geri istəyirik. Əgər etməsələr, mənim nə edəcəyimi görəcəksiniz".**
**ABŞ-ın Əfqanıstana qoşun yeritməyə hazır olub-olmaması ilə bağlı suala Tramp "biz bu barədə danışmayacağıq" cavabını verib. Qeyd edək ki, Tramp əvvəllər də bəyan etmişdi ki, əgər ölkə hakimiyyəti bazaya nəzarəti ABŞ-a qaytarmağa razı olmasa, Əfqanıstan fəsadlarla üzləşəcək.**
**Sentyabrın 19-da Tramp ABŞ rəsmilərinin Əfqanıstan nümayəndələri ilə aviabaza ilə bağlı məsələləri müzakirə etdiyini açıqlayıb. Sentyabrın 18-də o, Vaşinqtonun obyektə nəzarəti geri almağa cəhd etdiyini bəyan edib. Daha sonra Tramp bunun əsas səbəblərindən biri kimi bazanın "Çinin nüvə silahını istehsal etdiyi yerdən cəmi bir saatlıq uçuş məsafəsində olması"nı göstərib.**

### 75 yaşlı aviabaza...

Qeyd edək ki, Baqram hərbi hava bazası Əfqanıstanın Baqram şəhəri yaxınlığında yerləşən hərbi aerodromdur. 1979-1989-cu illərdə Sovet Hərbi Hava Qüvvələrinin, 2006-2021-ci illərdə isə ABŞ Hərbi Hava Qüvvələrinin Əfqanıstandakı əsas hərbi bazası kimi fəaliyyət göstərib. Hazırda Əfqanıstan Müdafiə Nazirliyinin nəzarəti altındadır. Aeroport Pərvan vilayətində, Çarikardan 11 km cənub-şərqdə və Kabildən 47 km şimalda yerləşir. Ağır nəqliyyat təyyarələrini və strateji bombardmançı təyyarələri idarə edə bilən 3000 metrlik uçuş-enmə zolağına malikdir. Hava bazasına üç böyük anqar, idarəetmə qülləsi və xeyli sayda texniki bina daxildir. 1950-ci illərdə Sovet İttifaqı tərəfindən tikilən aerodrom-da Əfqanıstan müharibəsi zamanı (1979-1989) SSRİ Silahlı Qüvvələrinin 40-cı Ordusunun böyük hərbi qarnizonu yerləşdirilib. Döyüş missiyalarına əlavə olaraq, Baqram Aerodromu həm də nəqliyyat mərkəzi kimi istifadə edilib.

2002-ci ildən 2021-ci ilə qədər ABŞ Hərbi Hava Qüvvələri tərəfindən istifadə edilən aviabaza 15 avqust 2021-ci ildə hazırkı hakimiyyət tərəfindən tutulub.

### İcazə verilməsə...

President Tramp tələbində bir xeyli ciddidir - belə ki, keçmiş və indiki ABŞ rəsmiləri "Reuters" agentliyinə bildiriblər ki, Trampın Əfqanıstandakı Baqram aviabazasını geri almaq planı Vaşinqtonu Əfqanıstana ikinci müdaxiləyə apara bilər. Mənbələrə görə, hava bazasına nəzarəti yenidən ələ keçirmək ABŞ rəhbərliyindən 10 mindən çox hərbçi və müasir hava hücumundan müdafiə sistemləri yerləşdirməyi tələb edə bilər. Agentliyin mənbələri qeyd edir ki, ABŞ rəhbərliyi Baqram aviabazasını hərbi yolla geri almağı fəal şəkildə planlaşdırmır. Hava bazası ABŞ tərəfindən geri alınsa belə, onlar deyirlər ki, bu ərazinin ABŞ qoşunlarına qarşı raket hücumları üçün istifadəsinin qarşısını almaq üçün onun ətrafında geniş perimetri təmizləmək və saxlamaq böyük səylər tələb edəcək.



### Danışıqlar başlayıb...

Bu arada Əfqanıstanın xarici işlər naziri vəzifəsini icra edən Əmir Xan Müttəqi Kabildə girovlarla bağlı xüsusi elçi Adam Beylerin başçılıq etdiyi ABŞ nümayəndə heyəti ilə görüşüb. Məlumata görə, danışıqlarda ikitərəfli əlaqələr, sərmayə imkanları və Əfqanıstandakı digər perspektivlər müzakirə olunub. Əmir Xan Müttəqi bildirib ki, münasibətləri normallaşdırmaq və saxlanılan vətəndaşların azad edilməsi kimi mürəkkəb məsələləri həll etmək üçün yaxşı imkan var.

"The Wall Street Journal" isə yazır ki, nümayəndə heyətinin Əfqanıstanda keçirdiyi görüşlərin bir məqsədi də məhz hərbi kontingenti aviabazaya qaytarmaqdır. Danışıqlar ilkin mərhələdədir. Vurğulandığı kimi, Amerika nümayəndə heyətinə Trampın girovlarla iş üzrə xüsusi nümayəndəsi Adam Beyler rəhbərlik edir. Hərbi mövcudluğun şərtləri və mümkün formatı ilə bağlı müzakirələrin yaxın vaxtlarda davam edəcəyi gözlənilir.

*S.İSMAYILZADƏ*

### "Taliban" qəti şəkildə narazıdır

"Taliban" isə bu təklifə müsbət rəy vermək niyyətində deyil - Taliban hökumətinin sentyabrın 21-də "X" platformada yaydığı rəsmi bəyanatda bildirilib: "Xatırladaq ki, Doha Sazişinə (ABŞ və Taliban arasında 2020-ci ildə bağlanmış Əfqanıstanda Sülhün Bərpası üzrə Saziş - Red.) uyğun olaraq, Birləşmiş Ştatlar Əfqanıstanın ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək və ya onun daxili işlərinə müdaxilə etməmək öhdəliyini götürüb.

Eyni zamanda, Kabil qeyd edib ki, o, bütün dövlətlərlə qarşılıqlı və ümumi maraqlara əsaslanan konstruktiv münasibətlərə can atır. "Taliban" əlavə edib ki, Vaşinqton keçmişin uğursuz yanaşmalarını təkrarlamaq əvəzinə realizm və rasionallıq siyasətini qəbul etməlidir".

Əfqanıstan Xarici İşlər Nazirliyinin sözçüsü və xarici işlər nazirinin müşaviri Zakir Cəlali də ABŞ-ın ölkədə hərbi mövcudluğuna istisna edib. "Əfqanıstan və ABŞ qarşılıqlı fəaliyyət göstərməlidir və qarşılıqlı hörmət və ortaq maraqlar əsasında iqtisadi və siyasi əlaqələr qura bilər", - Cəlali bildirib. Diplomat xatırladıb ki, əfqanlar tarixən ABŞ-ın hərbi mövcudluğuna razılıq verməyiblər: "Bu ehtimal Dohada aparılan danışıqlar və razılaşma zamanı tamamilə rədd edilib, lakin gələcək əməkdaşlıq üçün qapı açıqdır".

Ölkə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Fəsihəddin Fitrət isə bildirib ki, Əfqanıstan ərazisində hətta bir ədnəbi hərbçinin olması ölkə üçün qəbuledilməzdir. Kabil aviabaza ilə bağlı ABŞ və ya başqa ölkə ilə heç bir sövdələşməyə getməyəcək.

"New York Times" isə qeyd edir ki, Vaşinqton Talibanı Əfqanıstanın rəsmi hökuməti kimi tanımır və "Taliban"la ictimai əlaqəsini Əfqanıstanda həbsdə olan amerikalıların azad edilməsi üçün danışıqlarla məhdudlaşdırıb.

### Mart ayından start götürən müzakirələr...

CNN mənbələrə istinadən xəbər verir ki, Baqramın ABŞ-ın nəzarətinə qaytarılması ilə bağlı müzakirələr ən azı mart ayından Tramp administrasiyası daxilində aparılmaqdadır. Tramp və onun milli təhlükəsizlik müşavirləri bazanın Çini izləmək, Əfqanıstanın mədən sənayesinə çıxış əldə etmək, İŞİD-ə qarşı mübarizə üçün mərkəzin yaradılması və ola bilsin ki, diplomatik missiyanı bərpa etmək kimi bir neçə səbəbə görə zəruri olduğunu irəli sürürlər. Kanalın mənbələrinə görə, bütün bu məqsədlər üçün ABŞ-ın Əfqanıstanda hərbi mövcudluğu tələb olunacaq.

# Moskvadan Qərbə xəbərdarlıq...

## Ekspert: Hər hansı sərt addımın atılması da qeyri-realdır

**Son zamanlar Avropa İttifaqının rəsmilərinin Rusiyanın dondurulmuş aktivlərinin müsadirə olunacağı ilə bağlı bəyanatlar səsləndirməsi Moskvada ciddi narahatlıq yaradıb. Belə ki, artıq Rusiya bununla bağlı Qərbə xəbərdarlıq etməyə başlayıb. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova mətbuat konfransında bəyan edib ki, Moskva Aİ-nin bu addımını sakit qarşılamayacaq - o, Aİ-nin rəsmilərinin, xüsusilə də Fransa Prezidenti Emmanuel Makronun təhdid xarakterli bəyanatlarını şərh edərkən deyib ki, Rusiyanın Avropadakı dondurulmuş aktivlərinin müsadirəsi xaosa səbəb olmayacaq, əksinə, Rusiyadan sərt cavab tədbirləri görüləcək. Qeyd edək ki, M.Zaxarova bundan əvvəl də həmin məsələ ilə bağlı Qərbə xəbərdarlıq edib. Rusiya XİN-nin mətbuat katibi jurnalistlərin suallarını cavablandırarkən bildirmişdi ki, Rusiya dondurulmuş aktivlərinin Ukraynaya dəstək məqsədilə kapitala çevrilməsinə sərt reaksiya verəcək. "Biz bu və ya digər şəkildə Rusiyanı suveren ehtiyatlarından məhrum etmək cəhdləri ilə bağlı istənilən qeyri-dost addımlara sərt reaksiya verəcəyik. Qanuni hüquq və mənafelərimizin müdafiəsi ilə bağlı cavabımız həm hüquqi, həm də mənəvi cəhətdən əsaslandırılacaq", - deyə Zaxarova vurğulamışdı.**

### Aİ-dən yeni plan

Avropa İttifaqı ölkələri Ukraynaya yardım üçün dondurulmuş Rusiya aktivlərindən istifadənin yeni



variantını araşdırır. Qeyd edək ki, "Financial Times" qəzetinin məlumatına görə, Avropa İttifaqı ölkələri Belçikanın "Euroclear" depozitarında nağd pul qalıqları statusuna çevrilmiş vəsaitlərdən faizsiz istiqrazların alınmasında istifadəyə ümid edir. Qəzetin məlumatına görə, Rusiya Federasiyasının "Euroclear"da saxlanılan 194 milyard avroluq aktivinin 170 milyard avrosunun ödəmə vaxtı çatıb və vəsait pul qalıqları dərəcəsinə keçdikdən sonra Ukraynaya ötürüləcək. Sentyabrın 10-da Belçikanın xarici işlər naziri Maksim Prevo bildirib ki, Belçika Avropa İttifaqının hüquqi riskləri bölüşməsi şərti ilə Rusiyanın təxminən 200 milyard avro məbləğində dondurulmuş aktivlərinin istifadəsinə razılıq verəcək. Diplomatın sözlərinə görə, Brüssel ölkənin illik büdcəsinə ekvivalent məbləği ödəməyə məcbur edə biləcək hər hansı potensial iddiaya görə məsuliyyət daşıya bilməz.

### Dondurulmuş aktivlər müsadirə olunacaq?

Məsələ ilə bağlı politoloq Rəşad Bayramov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Aİ-də Rusiyanın dondurulmuş aktivlərinin müsadirəsi ilə bağlı hələ ki, heç bir tədbir nəzərdə tutulmayıb.

"Avropa İttifaqının hazırkı tədbirlərində Rusiyanın dondurulmuş aktivlərinin müsadirəsi ilə bağlı hər hansı prosedur nəzərdə tutulmayıb. Sadəcə olaraq, sözügedən dondurulmuş aktivlərin bu və ya digər şəkildə xüsusi vəsaitlərə çevrilərək Ukraynaya ötürülməsi ətrafında müzakirələr aparılır. Həmin vəsaitlər də Ukraynada müharibə fəsadlarının aradan qaldırılmasına və ölkədə geniş yenidənqurma işlərinin aparılmasına yatırılacaq. Demək olar ki, artıq bu istiqamətdə addımlar atılmağa başlanılıb. Dondurulmuş aktivlərin müsadirəsinə gəlincə, bu hal o zaman mümkün ola bilər ki, beynəlxalq məhkəmələrdə Rusiyanın Ukraynaya vurduğu zərərə görə Kiyevə kompensasiya ödəməsi ilə bağlı qərar qəbul edilsin - Moskva kompensasiyanı ödəməkdən imtina etdiyi təqdirdə onun dondurulmuş aktivləri müsadirə edilə bilər. Amma bu gün belə bir halın baş verməsi qeyri-mümkündür. Aİ-nin heç bir üzv ölkəsində Rusiyanın dondurulmuş aktivlərinin müsadirəsi barədə qərar qəbul edilməyib. Bu, banklararası təhlükəsizlik sisteminə mənfi təsir göstərə bilər", - deyə R.Bayramov bildirib.



### Sərt tədbirlər nə qədər realdır?

"Moskva çox yaxşı bilir ki, onun dondurulmuş aktivlərindən necə istifadə olunacağı istiqamətində planların hazırlanması üzərində işlər aparılır. Kreml indiyə qədər öz aktivlərini qorumaq üçün heç bir addım atmayıb - ümumiyyətlə, hər hansı sərt addımın atılması da qeyri-realdır. Ona görə ki, Rusiyanın adekvat cavab vermək imkanları məhduddur - Moskva Qərbə qarşı iqtisadi cəhətdən sərt tədbirlər görmək iqtidarında deyil. Zaxarovanın hədə xarakterli bəyanatları sadəcə olaraq, daxili auditoriyaya hesablanıb. Sanksiyalar altında olan, beynəlxalq səviyyədə təcrid edilən və valyuta ehtiyatları tükənən bir ölkənin Aİ-yə qarşı sərt tədbirlər görməsi inandırıcı görünmür. Rusiyanı daha da ağır sanksiyalar gözləyir - növbəti mərhələdə Rusiyanın xam neftinin alışına məhdudiyyətlər qoyulacaq". - deyə R.Bayramov vurğulayıb.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Onlar qapalı, ünsiyyətsiz deyillər...

## Beynəlxalq Jest Dilləri Günüdür

23 sentyabr - Beynəlxalq Jest Dilləri Günüdür (International Day of Sign Languages). Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2017-ci ilin dekabrında təsis etdiyi bu tarix lal-kar və eşitmə imkanları məhdud insanların həyatına diqqəti yönəltmək, onların problemlərinin həllinə dəstək olmaq məqsədi daşıyır. Eyni zamanda, həssas təbəqənin cəmiyyət üçün əhəmiyyətli insanlar olmasını vurğulamaq üçün keçirilir.

72/161 nömrəli qətnamənin təşəbbüskarı isə 1951-ci ildə yaradılmış Ümumdünya Lal-Karlar Federasiyası olub.Təşkilatın məlumatına görə, dünyada 70 milyondan yuxarı eşitmə qabiliyyətini itirmiş kar insanlar yaşayır ki, onların əsas ünsiyyət vasitəsi məhz jestlərdir. Təşkilat, həmçinin dünyada 300-ə yaxın jest dilinin və beynəlxalq jest dilinin mövcud olduğunu da qeyd edir. Dünya ictimaiyyəti jest dillərini təbii dillər sırasında qəbul edir.

Əlamətdar tarixi təsis edərkən BMT eşitmə imkanları məhdud insanların hüquq və azadlıqlarının həyata keçirilməsində jest dillərinin rolunu vurğulamağı və buna diqqəti cəlb etməyi hədəfə alıb. Bu, həm də cəmiyyətin davamlı inkişaf proqramının, insanların hüquq və azadlıqlarının, o cümlədən dil və mədəni müxtəlifliklərinin qorunması ilə bağlı prinsiplərinə nail olunmasında mühüm addımlardır.

Tarixin seçilməsi isə Ümumdünya Lal-Karlar Federasiyasının təsis günü ilə bağlıdır. Bu, həmçinin 1958-ci ildən sentyabrın sonuncu tam həftəsi qeyd edilən Ümumdünya karlar həftəsi ilə üst-üstə düşür.

Lal-karlar üçün ilk məktəbin əsasını 1760-cı ildə Parisdə rahib de Lepe qoyub. O, mimikalarda danışıq üsulunun banisi, jest dilinin böyük tərəfdarı olub. Lal-karların qapalı və ünsiyyətsiz olduqları barədə deyilənlər həqiqətə uyğun deyil. Halbuki lal-kar olmasına baxmayaraq, dünyada məşhur olan onlarca insanın adını sadalamaq mümkündür.

Məsələn, İntibah dövrünün şairi Pyerde Ronsarı "fransız şairlərinin şahzadəsi" adlandırırdılar, o, həm də gözəl qılınc oynadan və rəqqas idi. Məşhur "Pis eşitməklə sarayda heç nəyə nail ola bilməzsən" frazası ona məxsusdur.

Tarixdə başqa məşhurlarında adı var. Fransız yazıçısı Viktor Hüqo, bəstəkar LüdviqvanBethoven, italyan rəssamı Antonio Stanoli, fransız heykəltəraşı Klod-AndreDesen, fransız filosofu və yazıçısı Jan Jak Russo və başqalarının adlarını çəkmək olar.

Beynəlxalq Lal-Karlar Federasiyası eşitmə pozğunluğundan əziyyət çəkən insanların problemlərinə siyasətçi, hakimiyyət nümayəndələri, kütləvi-informasiya vasitələri işçiləri və ictimaiyyətin diqqətini yönəltmək üçün müxtəlif tədbirlər keçirməyə çağırır.

Azərbaycandada kifayət qədər eşitmə qüsurlu insanlar var. Dövlət tərəfindən lal-kar uşaqların cəmiyyətə inteqrasiyası üçün müəyyənişlər görülür.

Azərbaycanda belə məktəb ilk dəfə 1932-ci ildə Bakıda fəaliyyətə başlayıb. 1969-cu ildə respublikamızda ikinci məktəb açılıb. Məktəblərdən biri 1 nömrəli, digəri isə 3 nömrəli respublika xüsusi internat məktəbi adlandırılıb. 2012-ci ildə Nazirlər Kabinetinin qərarıilə 1 və 3 nömrəli məktəblər birləşdirilib və onların bazasında 3 nömrəli Respublika xüsusi internat məktəbi yaradılıb. İnternat məktəbində "Bacarıqlı əllər", dama, futbol, rəsm dərnəyi fəaliyyət göstərir.

# Mavi səssizlik...

**Hər dalğası bir cümlə, hər çırpıntısı bir səs, bir fəryaddır. Dəniz yalnız mənəvi anlamda deyil, iqtisadi, ekoloji və mədəni baxımdan da həyatımızın ayrılmaz hissəsidir. Dünya ticarətinin təxminən 90 faizi dənizlər vasitəsilə həyata keçirilir. Yəni geyimimizdən tutmuş, məişətdə istifadə etdiyimiz elektron əşyalara, hətta çörəyin hazırlanması üçün lazım olan taxıla qədər demək olar ki, əksər zəruri tələbat malları ünvanlarına gəmilərlə daşınır. Təbii ki, təlatümlü dənizləri, okeanları aşan gəmiləri idarə edən dənizçilər də bu mənada böyük zəhmət çəkirlər - vacib bir missiyanı yerinə yetirirlər. 24 sentyabr-Birləşmiş Millətlər Təşkilatında beynəlxalq bayramlardan biri olan Dünya Dəniz Günüdür. 1978-ci ildən etibarən qeyd olunan bu gün Beynəlxalq Dəniz Təşkilatı (IMO) Assambleyasının 10-cu sessiyasının qərarı ilə təsis edilib. Dünya Dəniz Günü 1980-ci ilədək martın 17-də keçirilib. Sonra onun qeyd olunma tarixinin sentyabrın 24-də keçirilməsinə qərar verilib. Dünya Dəniz Gününün məqsədi qanunsuz balıq ovu, suyun çirklənməsi və qlobal istiləşmə nəticəsində dəniz və okeanlarda meydana gələn bərpa oluna bilməyən dəyişikliklərə beynəlxalq səviyyədə diqqət çəkməkdir. Günün ən mühüm vəzifələri isə dəniz daşımalarında ətraf mühitin təhlükəsizliyini artırmaq, dənizin ətraf mühitini xüsusilə neft çirklənmələrindən qorumaq, bioresursların mühafizəsi və brakonyerliklə mübarizənin qarşısını almaqdır.**

## Dəniz niyə mavidir?

Yer kürəsinin 2/3 hissəsini okean və dənizlər tutur. Bildiyimiz kimi, dənizin insana xeyri çoxdur və bir çox xəstəliklərin müalicəsində mühüm rol oynayır. Eni və uzunluğu bilinməyən dənizlər sirlərlə doludur.

Dəniz suyu çox yaxından şəffaf görünür və uzaqdan mavi tonlarını özündə əks etdirir. Dəniz suyunun rəngi əsasən su molekullarının işığı udması ilə bağlıdır. Ağ işıq kimi bilinən Günəş işığı bütün rənglərin yaranmasını ehtiva edir. Dəniz suyu molekulları atmosferdə olduğu kimi işıq saçan zaman qırmızı olanları udur və bənövşəyi olanları əks etdirir. Dənizin rəngi bəzi vəziyyətlərə görə dəyişir. Dənizi bəzən mavi, bəzən yaşıl, bəzən də firuzəyi rənglərdə görmək mümkündür. Məlum olduğu kimi dəniz suyu rəngsizdir. Suyun mavi rəngli görünməsi də işıq tezliklərindən və təbəqənin dərinliyindən asılı olaraq dəyişir. Ona görə də dəniz bəzi yerlərdə yaşıl və ya başqa rəngdə görünür.




## Qlobal ticarətin 80-90 faizi...

BMT-nin məlumatına görə, son 100 il ərzində tuna, treska, marlin kimi balıq növlərinin 90 faizi ovlanıb. İl ərzində dəniz və okeanlara təxminən 21 milyon barrel neft axır. Böyük su obyektlərinə atılan sintetik tullantılar ildə bir milyon dəniz quşunun və 100 min dəniz məməlisinin ölümünə səbəb olur. Son bir əsr ərzində qlobal istiləşmə nəticəsində planetin əsas su obyektlərinin səviyyəsi 10-25 santimetrə qədər artıb. Qlobal ticarətin 80-90 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Beynəlxalq yükdaşımalar zamanı əksər hallarda dəniz və okeanlardan istifadə edilməsi onların ekosistemlərini pozur. Buna görə də hər il müəyyən bir aktual mövzuya həsr olunmuş Dünya Dəniz Günündə müxtəlif ekoloji tədbirlər, aksiyalar və dünya miqyasında mitinqlər keçirilir.

## "Okeanımız, öhdəliyimiz, imkanımız"

Bu günün cari ildəki şüarı "Okeanımız, öhdəliyimiz, imkanımız"dır. Mövzu qlobal ticarətin 80%-dən çoxunun dəniz yolu ilə daşındığı okeanın dünya iqtisadiyyatında mühüm rolunu əks etdirir.

Qeyd edək ki, Azərbaycanda da hər il sentyabrın sonuncu həftəsi "Xəzər həftəsi" kimi qeyd olunur.

***Yeganə BAYRAMOVA***

# Günəş sisteminin gizli nəhəngi...

## Niyə 8-ci planetə Neptun adı verildi?

**Günəş sistemimizin ən uzaq küncündə, qaranlıq kosmosun dərinliyində təkcə soyuq deyil, həm də sirr və sehr gizlənib. Bu, 8-ci və sonuncu planet Neptundur. Neptun Günəşdən ən uzaq məsafədə olmasına baxmayaraq, onun varlığı bizə sonsuz kainatın möhtəşəmliyini xatırladır. O, sanki, kainatın son nöqtəsi, bir səyahətin sonuncu dayanacağıdır. Elə bu səbəbdən də Neptun səssizdir, qaranlıqdır, amma bir o qədər də əzəmətli və cazibədardır. Neptunun mavi rəngi ilk baxışda insanı aldada bilər, bu, həyatın, suyun rəmzi kimi görünə bilər. Amma bu mavi, soyuq və ölümcül metan qazının yaratdığı bir gözəllikdir. Neptunun küləklərinin sürəti saatda 2,100 kilometri keçir, yəni Yer kürəsindəki ən güclü qasırğalardan belə qat-qat güclüdür. Neptunun kəşfi astronomiya tarixində bənzəri olmayan elmi zəka və müşahidənin bir qələbəsi kimi yadda qalıb. Bu, sadəcə bir planetin teleskopla görünməsi deyildi, riyazi hesablamalarla varlığı proqnozlaşdırılan ilk planetin tapılması idi. Neptunun kəşfi elm adamlarının kainatı yalnız baxaraq deyil, düşünərək də kəşf edə bildiklərini sübut etdi.**

## Neptunun kəşfi necə baş verdi?

19-cu əsrin əvvəllərində artıq Günəş sistemində Uran planetinin mövcudluğu məlum idi. Lakin astronomlar Uranın orbitində qəribəliklər müşahidə etməyə başladılar. O, hesablamalara uyğun hərəkət etmirdi, bəzən gözləniləndən daha sürətli, bəzən isə yavaş hərəkət edirdi. Bu isə alimlərə düşündürdü ki, onun yaxınlığında görünməyən, amma cazibə qüvvəsi ilə ona təsir edən başqa bir planet ola bilər.



## Riyazi axtarışlar başlayır

İki müstəqil alim, fransız Urbain Le Verrier və ingilis John Couch Adams Uranın orbitini araşdırmağa başladılar. Hər biri fərqli vaxtlarda, mürəkkəb riyazi hesablamalar vasitəsilə görünməyən bir planetin mümkün mövqeyini təyin etdi.

Le Verrier öz hesablamalarını 1846-cı ilin yayında Berlin Rəsədxanasına göndərdi və orada çalışan astronom Johann Galle və onun köməkçisi Heinrich d'Arrest bu məlumat əsasında səmanı müşahidə etməyə başladılar.

## Kəşfin əhəmiyyəti

Neptunun kəşfi astronomiyada yeni bir mərhələ açmışdı. Elmi metodların və nəzəriyyələrin real kainatla necə uyğunlaşa bildiyini göstərdi. İnsan zəkasının nə qədər uzağa gedə biləcəyini sübut etdi. Kainatın hələ nə qədər sirrli və dərin olduğunu bir daha ortaya qoydu.

## Nə üçün Neptun?

19-cu əsrdə yeni planet kəşf edilərkən, alimlər onu dənizlə bağlı bir adla adlandırmaq qərarına gəldilər. Bu, həm planetin soyuq, mavi rəngini, həm də onu əhatə edən soyuq qaz atmosferini simvolizə edirdi. Roma dəniz tanrısı Neptunun adı da bu xüsusiyyətlərə çox uyğun gəlirdi.

Yəni, Neptun planetinin adı həm astronomiyada, həm də mifologiyada gücü və sirlərini ifadə edən simvolik bir ad olaraq seçilmişdi.

Neptuna heç vaxt ayaq basa bilməyəcəyik. Amma onun varlığı bizim üçün bilik və maraq sərhədlərinin harada bitdiyini sorğulamağa səbəb olur. Neptun sanki kainatın astanasında dayanıb bizə baxır və deyir: "Hələ bilmədikləriniz, gördüklərinizdən çoxdur".

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5041
Sifariş: 1977
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova